2014-cü il dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 dekabr 2014-cü il tarixli 20 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 13 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2014-cü il dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində 70 saylı Masallı şəhər seçki dairəsindən Musakücə bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Eynullayev Məmmədağa Bəndalı oğlunun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyası qərarının ləğv edilməsi və namizədliyinin qeydə alınması barədə müvafiq qərar qəbul edilməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 dekabr 2014-cü il tarixli 20 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli, 11/53-2 saylı qərarı ilə təsdiq edilmiş (23 iyul 2010-cu il tarixli 15/58-6 saylı və 19 oktyabr 2012-ci il tarixli 5/16 saylı qərarları ilə dəyişikliklər edilmiş) Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Vətəndaş M.B.Eynullayev şikayətini onunla əsaslandırmışdır ki, 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 70 saylı Masallı şəhər seçki dairəsindən Musakücə bələdiyyəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, həmin bələdiyyə ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədləri DSK-ya təqdim etmiş, ancaq dairə seçki komissiyasının 22 noyabr 2014-cü il tarixli, 15/88 saylı qərarı ilə əsassız olaraq namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası M.B.Eynullayevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, imza vərəqəsi və ona əlavə edilmiş sənədlərin yoxlanılması üçün işçi qrupuna cəlb edilmiş mütəxəssis tərəfindən verilmiş rəyə əsasən, təqdim edilmiş imza vərəqəsində olan 20 seçici imzasından 6-nın etibarsız hesab edilməsi səbəbindən etibarlı hesab edilən seçici imzalarının sayı namizədin qeydə alınması üçün kifayət etməmişdir.

Araşdırma prosesində müəyyən olunmuşdur ki, namizəd M.B.Eynullayevin namizədliyinin müdafiəsi üçün imza vərəqəsində adları olan 20 seçicidən 6-sı dairə seçki komissiyasına ərizə ilə müraciət edərək namizədin müdafiəsi üçün imzaların onlar tərəfindən edilmədiyini bildirmişlər.

Araşdırma prosesində imza vərəqəsində imzaları mübahisələndirilən şəxslərdən alınmış izahatlar əsasında müəyyən edilmişdir ki, namizəd M.B.Eynullayevin namizədliyinin müdafiəsi üçün verilmiş imzalar onlar tərəfindən edilməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 57.4-cü maddəsinə görə, seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini,

yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini, imza etdiyi tarixi göstərir. İmza edən seçicilər barəsində qeyd edilməsi zəruri hesab olunan məlumatlar imza toplayan şəxs tərəfindən imza vərəqələrinə daxil edilə bilər. Göstərilən məlumatlar əllə yazılır və onların yayılmamasına təminat verilir.

Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 12 dekabr 2014-cü il tarixli rəylər və protokoldan görünür ki, bələdiyyə üzvlüyünə namizəd M.B.Eynullayevin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqəsində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmamışdır. Namizəd tərəfindən toplanılmış 20 seçici imzasının 6-sı etibarsız hesab edilmişdir.

Seçki Məcəlləsinin 215.1.6-cı maddəsinə əsasən əhalisi 4.999-dan az olan ərazidə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş 15 etibarlı seçici imzası toplamalıdır. Müvafiq icra hakimiyyəti orqanının təqdim etdiyi arayışla təsdiq olunur ki, Musakücə bələdiyyəsinin əhatə etdiyi ərazidə əhalinin sayı Seçki Məcəlləsinin yuxarıda qeyd edilən maddəsi ilə müəyyən edilmiş say həddindədir.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsasların olmadığı müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 70 saylı Masallı şəhər seçki dairəsi dairə seçki komissiyasının Eynullayev Məmmədağa Bəndalı oğlunun namizədliyinin Musakücə bələdiyyəsi üzvlüyünə qeydə alınmasından imtina edilməsi barədə 22 noyabr 2014-cü il tarixli 15/88 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənlər əsas götürülərək Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 215.1.6-cı, 216.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 70 saylı Masallı şəhər seçki dairəsindən Musakücə bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Eynullayev Məmmədağa Bəndalı oğlunun 12 dekabr 2014-cü il tarixli 20 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. 70 saylı Masallı şəhər seçki dairəsi dairə seçki komissiyasının Eynullayev Məmmədağa Bəndalı oğlunun namizəd kimi qeydiyyatından imtina edilməsi barədə 22 noyabr 2014-cü il tarixli 15/88 saylı qərarı qüvvədə saxlanılsın.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov